# “Xəzər Beynəlxalq İnvestisiya Şirkəti” Qapalı Səhmdar Cəmiyyətinin

**2016-cı ildəki**

**fəaliyyəti ilə bağlı**

# İDARƏETMƏ HESABATI

Bu idarəetmə hesabatı "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 75-ci maddəsinə əsasən və Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 03 fevral 2016-cı il tarixli Qərarı ilə təsdiq edilmiş "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında Qaydalar"a uyğun olaraq, 2016-ci ilin nəticələri üzrə tərtib olunmuşdur.

## HESABAT

1) "Xəzər Beynəlxalq İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra "Şirkət") 18 mart 2008-ci il tarixdə 1700850481 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.
2) Şirkətin hüquqi ünvanı: AZ1010, Bakı şəhəri, Səbail rayonu, Nizami küçəsi, ev 96; Şirkətin faktiki ünvanı: AZ1000, Bakı şəhəri, Nəsimi rayonu, Zərifə Əliyeva küçəsi, ev 55, Yeni Həyat Plaza, 6-cı mərtəbə.
3) Şirkətin adında və təşkilati-hüquqi formasında dəyişikliklər olmamışdır. Şirkət digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradılmamışdır. Şirkət hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaradılmamışdır.
4) Şirkətin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəlikləri olmamışdır.
5) Şirkətin hesabat dövrü ərzində ləğv edilmiş törəmə cəmiyyəti olmamışdır; Şirkətin hesabat dövrü ərzində aşağıdakı törəmə cəmiyyətləri yaranmışdır:
   - "T Tomatoes" Məhdud Məsuliyyətli Cəmiyyəti (hüquqi ünvan: AZ0100, Abşeron rayonu, Zirə südçülük sovxozu; 22 iyul 2016-cı il tarixdə 3101934961 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır; nizamnamə kapitalında Şirkətin payı – 50%);
   - "A Plastic" Məhdud Məsuliyyətli Cəmiyyəti (hüquqi ünvan: AZ2732, Xaçmaz rayonu, Yergüc kəndi; 26 iyul 2016-cı il tarixdə 7701534321 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır; nizamnamə kapitalında Şirkətin payı – 53,06%);
   - "Agro Trading" Məhdud Məsuliyyətli Cəmiyyəti (hüquqi ünvan: AZ0100, Abşeron rayonu, Məmmədli kəndi; 18 oktyabr 2016-cı il tarixdə 3101995861 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır; nizamnamə kapitalında Şirkətin payı – 100%);
   - "Our Orchards" Məhdud Məsuliyyətli Cəmiyyəti (hüquqi ünvan: AZ2732, Xaçmaz rayonu, Yergüc kəndi; 21 dekabr 2016-cı il tarixdə 7701735151 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır; nizamnamə kapitalında Şirkətin payı – 65%).
6) Şirkət hər hansı şirkətlər qrupunun bir hissəsi deyil.

7) Şirkət ümumi investisiya fəaliyyəti ilə məşğul olur.
8) Şirkət fəaliyyəti üzrə hər hansı lisenziya və icazəyə malik deyil.
9) Şirkət hər hansı məhsul və xidmət təklif etmir.
10) Hesabat dövrünün sonuna Şirkətin 9 (doqquz) işçisi olmuşdur.
11) Şirkətin müşahidə şurası və icra orqanı aşağıdakı şəxslərdən ibarətdir:
    Müşahidə Şurası: Rövşən Nəcəf Çingiz oğlu, Heval Eren Kelekci, Jasem Davoud Aloun, Hameed Abdullah Hussein Al-Ahmar, Azfar Hussain Qarni.
    İcra orqanı – Baş menecer: Aşırov Elvin Cəmasib oğlu.
12) Şirkətin 4 (dörd) hüquqi şəxs və 1 (bir) fiziki şəxs olan səhmdarı var.
13) Səhmdarların adları, ünvanları, onların səhmlərinin sayı və Şirkətin nizamnamə kapitalındakı payı aşağıdakı kimidir:
    - Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (P.O. Box 54069, Jeddah 21514, Səudiyyə Ərəbistanı Krallığı) – 6564 (altı min beş yüz altmış dörd) adi səhm – 17,9974%
    - "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (VÖEN: 1700604401) (AZ1095, Bakı şəhəri, Səbail rayonu, Niyazi küçəsi, ev 23) – 8788 (səkkiz min yeddi yüz səksən səkkiz) adi səhm – 24,0952%
    - İslam İnkişaf Bankı (P.O. Box 5925, Jeddah 21432, Səudiyyə Ərəbistanı Krallığı) – 9900 (doqquz min doqquz yüz) adi səhm – 27,1441%
    - Saham Holding Company (P.O. Box: 24100, Safat 13101, Küveyt) – 5280 (beş min iki yüz səksən) adi səhm – 14,4769%
    - Hameed Abdullah Hussein Al-Ahmar (Hadda Area, P.O. Box 18480, Səna, Yəmən Respublikası) – 5940 (beş min doqquz yüz qırx) adi səhm – 16,2865%
14) Şirkətin səhmdarlarının hesabat dövrü ərzində keçirilmiş ümumi yığıncaqları barədə məlumat:

| **Tarix və yer** | **Gündəliyə çıxarılmış məsələlər** |
|---|---|
| 23 may 2016-cı il, Bakı | 1) 2015-ci maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatlarının təsdiq edilməsi;<br>2) Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə 2015-ci il üzrə illik hesabatın təsdiq edilməsi. |
| 16 iyul 2016-cı il, Bakı | 1) Şirkətin 2-ci redaksiyada nizamnaməsinin təsdiqi;<br>2) Şirkətin müşahidə şurasının tərkibinin təsdiqi;<br>3) Şirkətin baş menecerinin təyini;<br>4) Qeydiyyat üzrə səlahiyyətli şəxsin təyini. |
| 12 oktyabr 2016-cı il, Bakı | 1) Dividendlərin bölüşdürülməsi;<br>2) Şirkətin işçi heyətinə mükafatın ödənilməsi |

15) Şirkətin hal-hazırda dövriyyədə olan 36472 (otuz altı min dörd yüz yetmiş iki) ədəd sənədsiz adlı formada nominal dəyəri 31001200 (otuz bir milyon min iki yüz) manat olan adi səhmi var. Bu səhmlər AZ100100780P dövlət qeydiyyat nömrəli 22 may 2008-ci il dövlət qeydiyyat tarixli və AZ100100780P dövlət qeydiyyat nömrəli 23 sentyabr 2008-ci il dövlət qeydiyyat tarixli iki buraxılışda buraxılmışdır.
16) Hesabat ili ərzində səhmlər üzrə 3932000 (üç milyon doqquz yüz otuz iki min) manat məbləğində dividend ödənilmişdir.
17) Şirkətin qiymətli kağızları hər hansı fond birjasında yerləşdirilməyib və hər hansı fond birjasında tədavüldə deyil.
18) Hesabat dövründə Şirkət tərəfindən xüsusi əhəmiyyətli əqd bağlanmamışdır.
19) Hesabat dövründə Şirkət tərəfindən aidiyyəti şəxslərlə əqd bağlanmamışdır.
20) Hesabat 26 aprel 2017-ci il tarixli Ümumi Yığıncaqda təsdiq olunmuşdur.